Kredo.- 2022.- 27 iyul.- S.1.

Sevindik Nəsiboğlu -14

# MÖHTƏŞƏM YOLUN İŞIĞINDA



Sevindik Nəsiboğlunu hələ gənc də adlandırmaq olmaz. O hələ yeniyetmədir. Yaşın 14-cü ilini başa vurur. Əlbəttə, onun günümüzəcən yazdığı, yaratdığı ədəbi fəaliyyətinin barı-bəhəri olan kitabları ilə müqayisədə bu yaş təəccüb doğura bilər. Amma təbiətdə möcüzələr olduğu kimi cəmiyyətdə də ağlımızın, düşüncəmizin az qala qəbul edə bilmədiyi qeyri-adiliklər var. Sevindik Nəsiboğlu 4 kitabın müəllifidir. Bu kitabların hər biri onun kimliyini görmək üçün bəs edəcək gücdədir. "Dünyamsan Azərbaycan", "Hərdən uçmaq istəyirəm", "Könüllərə yol gəzirəm" poetik kitabları və nəhayət, "Ulu Naxçıvanım" ədəbi-tarixi publisistik əsəri onun təkcə ədəbi mühitdə yox, həm də jurnalistikada dəqiq yerini göstərdi. Onu da deyim ki, Sevindik Nəsiboğlu Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Bizim "Kredo"da redaksiya heyətinin üzvü kimi də ədəbi jurnalistik fəaliyyətindən başqa fəal ictimai iş də aparır. Artıq iki ildən çoxdur ki, o, istisnasız olaraq qəzetin dərc olunan bütün saylarında çox maraqlı yazıları ilə çıxış edir. Bu yeniyetmə müəllifin sosial şəbəkədəki fəallığını da desək, onda, qeyri-adiliyi heç bir təəccüb doğurmaz.

Dünyada belə fenomenlər olub. Çox kiçik yaşlarından tanınan rəssamlar, musiqiçilər, hətta riyaziyyatçılar belə var ki, dünya mənəvi irsində öz payları ilə əbədi yaşayırlar.

Sevindik Nəsiboğlunun "Möhtəşəm zəfərin nişanəsi" adlı kitabı ötən ilin sonunda işıq üzü görüb. Bu kitab Qarabağ uğrunda savaşın ən dəyərli səhifələrini özündə ehtiva edib. Müəllif Azərbaycan ordusuna əbədi bir heykəl qoyub.

Sevindik Nəsiboğlunun qeyri-adiliyinə təəccüblənənlər üçün bir fakt da əlavə edim. Bizim kəndimizdən həm də qohumumuz olan iki uşaq elə Sevindik yaşda Amerika universitetlərinin tələbələridir. Doğrudur, onlar riyaziyyat sahəsində parlayırlar. Amerikada yayımlanan verilişlərdə bu yeniyetmələrin təxəyyül, ədəbi-publisistik özünüifadə imkanları kifayət qədər görünür. Bir qədər obrazlı desək, biz öz əjdahamızla nə üçün fəxr etməyək?!

*Ə.XƏLƏFLİ*